# Qarşımızda mühüm vəzifələr durur

**Respublikanın bütün elm və təhsil ictimaiyyəti Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə noyabrın 26-da paytaxtın Konqres Mərkəzində keçirilən mərasimdə Prezident İlham Əliyevin proqram xarakterli çıxışının təsiri altındadır.**

Bakı Dövlət Universitetinin Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə təsis edildiyini xatırladan dövlət başçısı vurğuladı ki, bu qərar bir daha cümhuriyyət qurucularının niyyətini və siyasətini əks etdirir və onların savadsız respublikada gələcəyin qurulmasının mümkünsüzlüyünü başa düşdüklərini təsdiqləyir. Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr verdiyini qeyd etdi: "100 il müddətində universitetin 200 minə yaxın məzunu Azərbaycanın müxtəlif sahələrində öz bilik və bacarıqlarını nümayiş etdirib, məzunlar arasında da görkəmli şəxslər, alimlər, ictimai xadimlər, siyasətçilər, mütəxəssislər var. Onların bir çoxu Azərbaycanın hərtərəfli inkişafına öz dəyərli töhfələrini verib. Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev də BDU-nun məzunudur".

Ümummilli liderin xalqımızın qarşısında misilsiz xidmətlərindən, təhsil sahəsinə böyük diqqətindən danışan dövlət başçısı ulu öndərin hələ sovetlər dövründə Azərbaycan gənclərinin Sovet İttifaqının aparıcı ali məktəblərində oxuması üçün böyük səylər göstərdiyini və sovet məkanında buna oxşar təcrübənin olmadığını diqqətə çatdırdı.

Prezident Azərbaycanın gələcəyi üçün güclü kadr potensialının yaradıldığını, bununla ölkəmizin uğurlu inkişafının təmin edildiyini vurğuladı. Dövlət başçısı ümummilli liderin Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlardan, xalqa bağlılığından, siyasi iradəsindən, müdrik qərarlarından danışdı. Müstəqilliyə aparan yolda yaranan çətinlikləri qeyd edən dövlət başçısı gənclərin bu tarixi bilmələrinin, müəllimlərin bu tarixi onlara çatdırmalarının vacibliyini vurğuladı. Ölkə rəhbəri dedi ki, bu, bir daha belə bir hadisələrin təkrarlanmaması üçün önəmlidir. Bu gün Azərbaycanda xalqın iradəsinin hökm sürdüyünü, ölkəmizin dünya miqyasında müasir, sürətlə inkişaf edən, adət-ənənələrinə sadiq, dinamik ölkə kimi tanındığını, xalqın iqtidarı dəstəklədiyini deyən dövlət başçısı dünyada bizə rəğbətin artdığını, dünya birliyinin əksəriyyətini təşkil edən ölkələrin nüfuzlu beynəlxalq təşkilatlarda bizə səs verdiklərini bildirdi.

Xarici siyasətlə bağlı uğurlarımızdan danışan cənab Prezident bütün tribunalardan Azərbaycanın öz haqq səsini ucaltdığını dedi. Son 2 ay ərzində də ölkəmizdə mühüm beynəlxalq tədbirlərin keçirildiyini, o cümlədən Qoşulmama Hərəkatına



sədrliyə başladığımızı, dünya dini liderlərinin görüşünün baş tutduğunu xatırladan dövlət başçısı Azərbaycanda multikultural mühitin hökm sürdüyünü, daxili vəziyyətin sabit, iqtisadi göstəricilərin yaxşı olduğunu, bütün sahələr üzrə artımın qeydə alındığını, islahatların davam etdirildiyini, sosial sahəyə böyük diqqət yetirildiyini bildirdi.

Prezident İlham Əliyev özünün də 5 il ərzində müəllim kimi fəaliyyət göstərdiyini, bu peşənin onun üçün yad olmadığını qeyd edərək dedi: "O ki qaldı, müəllimlərin fəaliyyətinə, mən onların fəaliyyətini çox yüksək qiymətləndirirəm. Müəllim peşəsi çox şərəfli, məsuliyyətli, çox ağır peşədir. Müəllim hər zaman tələbə qarşısında öz biliyini göstərməlidir. Tələbələr də indi hər şeyi görürlər, hər şeyi seçə bilirlər. Ona görə müəllimlər daim öz biliklərini artırmalıdırlar. Mən deyim ki, biz müasir dövrdə köhnə baqajla yaşaya bilmərik".

Azərbaycan Prezidentinin proqram xarakterli nitqi cəmiyyətimizdə geniş əks-səda doğurub. Kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə, elektron mediada Prezidentin tarixi çıxışı haqqında birmənalı olaraq hamı yüksək fikirlər yazır. Biz müəllimlər dövlət başçısının çıxışını yüksək qiymətləndiririk. Bunu Prezidentin fərmanı ilə BDU-nun elm və təhsil sahəsində nailiyyətlər əldə etmiş 113 əməkdaşına dövlət təltiflərinin verilməsi bir daha təsdiq edir.

Mükafata layiq görülmüş bir müəllim kimi, Azərbaycan Prezidentinə bizim əməyimizə dəyər verdiyi üçün səmimi qəlbdən təşəkkürümü bildirirəm. Hesab edirəm ki, təhsil işçiləri Azərbaycan Prezidentinin çıxışından irəli gələn elm, təhsil, təlim – tərbiyə sahəsində prioritet istiqamətləri müəyyən etməli, bu istiqamətlər üzrə işlərin sistemli yerinə yetirilməsinə çalışmalıdırlar.

***Azad QURBANOV,***
***BDU-nun kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, dosent***

Xalq qəzeti.- 2019.- 1 dekabr. S. 6.